**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "KOROĞLU" VƏ "MANAS" DASTANLARINDA HƏRB MÖVZUSUNUN MİFOLOJİ SEMANTİKASI

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı
5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı **Sahibə Sədnik qızı Paşayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2024**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Aşıq yaradıcılığı şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, dosent
**İslam Hüseyn oğlu Sadıqov**

Filologiya elmləri doktoru, dosent
**Elmira Fikrət qızı Məmmədova-Kekeç**

Filologiya üzrə fəlsəfə doktoru
**Arzu Vahid qızı Məmmədxanlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən BFD 1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor

_________________________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent

_________________________ **Elçin Hüseynağa oğlu Abbasov**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent

_________________________ **Almaz Qasım qızı Binnətova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** "Koroğlu" və "Manas" dastanlarında hərb mövzusunun mifoloji semantikasının tədqiqi ümumtürk eposşünaslığının problemlərinin öyrənilməsi baxımından böyük aktuallıq kəsb edir. Belə ki, istər "Manas", istərsə də "Koroğlu" eposları ümumtürk epos yaradıcılığının iki ən nəhəng örnəyidir. "Koroğlu" dastanı yayılma arealına görə həm Qərbi türk, həm də Şərqi türk dastançılıq ənənəsini, demək olar ki, bütövlükdə əhatə edir. Bu dastanın variantlarına bütün türk xalqlarının epos ənənəsində rast gəlmək mümkündür. "Manas" dastanı isə daha çox Şərqi türk dastan arealı ilə bağlı olsa da, o, həcminə və epik monumentallığına görə ümumtürk və ümumdünya dastançılıq ənənəsinin möhtəşəm eposudur. Bu da onu göstərir ki, "Koroğlu" və "Manas" dastanları ümumtürk qəhrəmanlıq eposunun istisnasız olaraq bütün səciyyəvi xüsusiyyətlərini özlərində daşıyır. Onların müqayisəli şəkildə öyrənilməsi nəinki hərb mövzusunun mifoloji semantikasının tədqiqi, eləcə də ümumtürk dastançılıq ənənəsinin bütün tipoloji keyfiyyətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

"Koroğlu" və "Manas" dastanlarının müqayisəli tədqiqində "hərb" və "mif" anlayışları xüsusi məna kəsb edir. Belə ki, nəinki "Koroğlu" və "Manas" dastanları, eləcə də istənilən qəhrəmanlıq dastanları hərb və mif mövzuları əsasında təşkil olunur. Bu anlayışlar məna baxımından bir-birindən uzaq görünsə də, onlar dastan mətninin poetik strukturunun əsas səviyyələrini təşkil edir.

"Koroğlu" və "Manas" dastanlarının dünya eposunun ən möhtəşəm dastanlarından olması onların sağlam, güclü, sarsılmaz mifik bünövrəyə malik olmasından soraq verir. Bu

cəhətdən, hər iki dastanda hərb mövzusunun öyrənilməsinin ən sağlam və düzgün metodologiyası həmin mövzunu mifik semantika müstəvisinə gətirməyi tələb edir. Mif qəhrəmanlıq dastanları poetikasının açarıdır. Dastan qəhrəmanı öz gücü, ağlı, fərasəti, döyüş qabiliyyətləri, silahları etibarilə hamıdan fərqlənir. O, qeyri-adi gücə malik olduğu kimi, silahları da, atı da mistik gücə malik olur. Bu mistik qabiliyyət, güc və döyüş vasitələrini ona mifik hamiləri-totem əcdadlar verir. Mifik hamilər qəhrəmanı bütün həyatı boyunca müşayiət edir. Koroğlu və Manas xəlqi ideallar uğrunda mübarizə aparan, hərbi şücaətlər göstərən qəhrəmanlardır. Həmin obrazlar bütün xarakterik cizgiləri və epik davranış qəlibləri ilə mifə bağlıdır. Hər iki dastanda hərb mövzusunun müqayisəli tədqiqinin əsas aspekti mifdir.

Azərbaycan və qırğız xalqlarının hərb tarixi haqqında fikirlər, materiallar və araşdırmalar müxtəlif tarixi mənbələrdə, salnamələrdə, rəsmi və elmi sənədlərdə, kütləvi informasiya materiallarında, hadisə iştirakçılarının xatirə, məktub və memuarlarında da öz əksini tapmışdır. Azərbaycan tarixşünaslığında isə hərb tarixi məsələləri S.V.Aşurbəyli, Ə.S.Sumbatzadə, Z.M.Bünyadov, Y.M.Mahmudov, H.V.Abdullayev, F.M.Əliyev, İ.Q.Əliyev, Ə.Ə.Əlizadə, S.Y.Qaşqay, T.M.Məmmədov kimi və bir çox tədqiqatçı-alimlərin əsərlərində araşdırılmışdır. Azərbaycanda hərb tarixi xarakterli məqalələr XX əsrin əvvəllərindən çap olunsa da, xüsusi hərbi tarixşünaslığın əsasını XX əsrin 60-cı illərindən H.M.İbrahimbəyli, S.D.İbrahimov, M.H.Abbasov, Q.Ə.Mədətov, P.E.Zeynalov öz tədqiqatları ilə qoydular. Bu monoqrafiyalarda Azərbaycan hərb tarixinin ayrı-ayrı dövrləri araşdırılırdı. P.H.Dərabadi, Ş.Ə.Nəzərli, M.S.Süleymanov, N.A.Əliyev S.H.Məmmədov, E.K.Məmmədova, N.Ş.Əmirbəyova kimi alimlərin tədqiqatları Azərbaycanın orta əsr, yeni və ən yeni, eləcə də XXI əsrin əvvəllərinin hərb tarixinin problemlərinə həsr olunub.

İ.P.Petruşevski, V.F.Minorski, Y.A.Paxomov, K.V.Trever, İ.M.Dyakonov kimi rus sovet alimləri bu məsələyə müraciət edərək təhlillər aparmışlar. Türkiyə alimlərindən B.Ögəl, R.Özdək, F.Sümərin bu sahədə maraqlı elmi işləri vardır. Hərb tarixinin araşdırılmasında L.N.Qumilyovun və H.Vamberinin də əsərlərini unutmaq olmaz .

Azərbaycanın orta əsrlər hərb tarixi, burada istifadə olunan silahlar, döyüş geyimləri, müxtəlif fənd və üsullar haqqında məlumatların öz əksini tapdığı "Koroğlu" dastanının toplanması və öyrənilməsi yolları da müxtəlif olmuşdur.

"Koroğlu" dastanının ayrı-ayrı qol və epizodları, hekayət və rəvayətləri, başlıcası isə nəğmələri əlyazmasından daşbasmasına qədər uzun bir təkamül yolu keçmişdir. "Koroğlu" eposunun toplanması və nəşrində, onun geniş, hərtərəfli, ardıcıl və sistemli tədqiqində, koroğluşünaslığın ayrıca tədqiqat sahəsi kimi müəyyənləşməsində Azərbaycan folklorşünaslarının böyük əməyi olmuşdur.

Eposun seçmə qollarının sistemləşdirilərək elmi mətninin hazırlanması, tərtib və nəşri M.H.Təhmasibin adı ilə bağlıdır. M.H.Təhmasibin ayrı-ayrı obrazlar haqqında mülahizələri nəinki onların mifoloji qatlarının öyrənilməsində, bütövlükdə hazırkı dövrün Azərbaycan mifşünaslığı üçün elmi-nəzəri bünövrəsini təşkil etmişdir. Türk mifoloji obrazlarının ayrı-ayrılıqda tədqiqi sahəsində professor M.Seyidovun araşdırmaları xüsusilə diqqəti cəlb etməkdədir. S.Paşayev (Pirsultanlı), P.Əfəndiyev, A.Nəbiyev, N.Cəfərov, X.Koroğlu, İ.Abbaslı, B.Abdulla, F.Bayat kimi alimlərin koroğluşünaslığın inkişafında xidmətləri əvəzsizdir. Onların tədqiqatları türk mifoloji obrazlarının öyrənilməsi üçün əhəmiyyətlidir. "Koroğlu" dastanı V.Vəliyevin, B.Həqqinin, S.Rzasoyun və başqa alimlərin tədqiqatlarında da özünəməxsus şəkildə araşdırılmışdır.

Azərbaycanda "Manas" dastanı haqqında elmi-nəzəri fikrin işlənib hazırlanmasında Adil Cəmilin xüsusi əməyi vardır.

O, qırğız eposu “Manas”ın Azərbaycanda ilk tərcüməçisi və tədqiqatçısıdır. Adil Cəmil ““Manas” eposu və türk dastançılıq ənənəsi” mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi adını almış, türk dastanlarının elmi təhlili ilə bağlı beynəlxalq konfrans və simpoziumlarda manasşünas alim kimi məruzə etmişdir[1].

Qırğız alimlərindən T.A.Bakçiyevin, E.Beyşenbyevin, İ.Bolcurovun, T.Ojukeyevin, T.Çorotegin, T.Koyçuyevin, T.Omurbəyovun, S.S.Surazakovun və digərlərinin də əsərləri qırğız tarixi, qırğız xalqının azadlıq uğrunda apardığı savaşlar haqqında qiymətli məlumatları əks etdirir və böyük maraq doğurur. Qırğız xalqının və ümumilikdə, türk xalqlarının ortaq mədəniyyətinin öyrənilməsində, həmçinin bu xalqların etnogenezis və etnopsixologiyasına, dastan yaradıcılığına, o cümlədən “Manas” eposuna həsr olunmuş tədqiqatların hazırlanmasında yaxından iştirak edən O.Süleymenov, R.Kadırbayeva, B.Yunusəliyev kimi folklor araşdırıcılarının tədqiqatları da diqqəti cəlb edir.

“Manas” dastanı müasir qırğız mədəniyyəti üçün də ilkin qaynaq kimi çıxış edir. “Manas” dastanını elmi ictimaiyyətə ilk dəfə qırğız-qazax türklərindən Çokan Vəlixanoğlu tanıtmış, dastan məşhur rus türkoloqu Radlov tərəfindən qismən toplanmış, “Türk xalq ədəbiyyatı nümunələri”nin beşinci cildi

---

[1] Cəmil, A.S. İslamın qəbul edilməsindən sonrakı türk dastanları: “Manas” və “Dədə Qorqud” dastanlarının ortaq motivləri // Türk dastanları türk xalqlarının ədəbi salnaməsidir: Beynəlxalq konfrans, ( 2004, 6-7 may). - Bakı: Adiloğlu MMC, - 2004. - s. 239-244.; “Manas” eposu və türk dastançılıq ənənəsi / (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) / - Bakı, 2004. / - 152 s.; Ümumtürk folklorunun “Manas” zirvəsi (ön söz) / Manas: Dastan. - Bakı: Nurlan, 2009. - s. 3-8; Manas: Tarixi varislikdən ədəbi varisliyə // “Folklor və tariximiz” mövzusunda AMEA Folklor İnstitutu və AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutunun Elmi Konfransının materialları. - Bakı: Elm və Təhsil, - 2012. - s. 5-8

kimi 1885-ci ildə çap olunmuşdur[2]. “Manas” dastanı 12.452 misradan ibarətdir.

“Manas” eposunun toplanıb yazıya alınmasında və öyrənilməsində öncüllük etmiş Ç.Vəlixanov və V.Radlovdan sonra bir çox alimlər bu eposun araşdırılmasında böyük zəhmət çəkmişlər. Akademik V.Jirmunskinin, M.Auezovun, V.Yunusəliyevin, A.Bernştam, P.Berkovun, S.Abramzonun, K.Raxmatullinin, M.Boqdanovanın, R.Qadırbayevanın, S.Musayevin manasşünaslığa verdikləri elmi töhfələr yaşamaqda davam edir. Sagımbay Orozbakov “Manas” dastanının xarakter və məzmun zənginliyini əhatəli və geniş şəkildə paylaşan “Manasçı” kimi tanınır.

“Manas”ın Azərbaycanda orijinaldan ilk poetik tərcümələri “Gənclik” jurnalında, “Ədəbiyyat qəzeti”ndə (tərcüməçi Adil Cəmil), Azərbaycanın xalq yazıçısı Anarın tərtib etdiyi “Min beş yüz ilin oğuz şeiri” antologiyasında (1-ci cild), akademik Nizami Cəfərovun müəllifı olduğu dörd cildlik “Türk xalqları ədəbiyyatı”nın 2-ci cildində və s. mətbuat orqanlarında işıq üzü görüb, ayrıca kitab şəklində (1995, 2009) çapdan çıxıb.

Müstəqillik dövründə türkdilli xalqların dövlət başçılarının zirvə görüşləri səviyyəsində “Manas” eposunun 1000 illik yubileyinin məhz (Qırğızıstanda 28-29 avqust 1995-ci ildə) YUNESKO təşkilatı tərəfindən təntənəli şəkildə bayram edilməsi mədəni əlaqələrin inkişafına güclü təkan vermiş və xalqların bir-birinə yaxınlaşmasında, kulturoloji əlaqələrin genişlənməsində xüsusi rol oynamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi “Koroğlu” və “Manas” dastanlarında ifadə olunmuş hərb

---

[2] Радлов, В.В.. Наречия северных тюркских племен: Die Sprachen der nördlichen Türkischen Stämme: 1 отделение. Образцы народной литературы. Санкт-Петербург: Тип. Императорской акад. наук, 1882

mövzusunun, döyüş mədəniyyətinin tarixini müqayisəli şəkildə araşdırmaq, o cümlədən təhlil olunan mövzunun poetik ifadəsinə, mifoloji semantikasına aydınlıq gətirməkdir. Bu məqsəd aşağıdakı əsas vəzifələri nəzərdə tutur:

1.“Koroğlu” və “Manas” dastanlarında Azərbaycan və qırğız xalqlarının hərb tarixi və döyüş mədəniyyətinin tədqiqi. Buraya hərb tarixinə qısa bir nəzər salınması, türk folklorunda hərb və döyüş motivləri, ayrı-ayrılıqda “Koroğlu”, “Manas” dastanlarında hərb tarixi və döyüş mədəniyyətinin öyrənilməsi kimi məsələlər aiddir.

2.“Koroğlu” və “Manas” dastanlarında hərbi obraz və motivlərin mifik kultlarla bağlılığının tədqiqi. Buraya döyüş fəndləri və silah kultlarının mifik köklərlə əlaqəsi, ordu quruluşu, taktika və mifik hərbi məkan, Çənlibelin mifik hərbi məkan kimi səciyyələndirilməsi, döyüş vasitələri, savaş ruhunun mifoloji semantikası, qadın qəhrəmanların mifik ana semantikası, qəhrəman obrazlarının mifik su və Bozqurd kultları ilə bağlılığının tədqiqi kimi məsələlər aiddir.

3. “Koroğlu” və “Manas” dastanlarında hərb-qəhrəmanlıq ruhunun bədii tərənnümünün mifoloji semantikasının tədqiqi. Buraya “Koroğlu” dastanında hərb mövzusunun bədii-emosional ifadəsinin mifik məna çalarlarının, “Manas” dastanında qəhrəmanlıq ruhunun poetik ifadəsinin mifik semantikasının, qəhrəman obrazının bədii tərənnümünün mifik qəliblərinin öyrənilməsi kimi məsələlər aiddir.

**Tədqiqatın metodları.** Dissertasiya zəngin nəzəri-metodoloji baza əsasında yazılmışdır. Bu baza iki əsas istiqaməti əhatə edir:

1. Azərbaycan alimlərinin (Xalıq Koroğlu, Mirəli Seyidov, Məmmədhüseyn Təhmasib, İsrafil Abbaslı, Bəhlul Abdulla, Sədnik Paşa Pirsultanlı, Tofiq Hacıyev, Nizami Cəfərov, Azad Nəbiyev, Muxtar Kazımoğlu (İmanov), Kamran Əliyev, Asif Hacılı, Əfzələddin Əsgər, Füzuli Bayat, Cəlal Bəydili

(Məmmədov), Mahmud Allahmanlı, Ramazan Qafarlı, Ramil Əliyev, Yeganə İsmayılova, Seyfəddin Rzasoy, Rüstəm Kamal, İslam Sadıq, Adil Cəmil və b.) ümumiyyətlə epik mətnlərin, məhəbbət və qəhrəmanlıq dastanlarının, o cümlədən “Koroğlu” dastanının tədqiqi sahəsində uzun illər ərzində apardıqları tədqiqatlar nəticəsində formalaşmış nəzəri-metodoloji baza.

2. “Manas” eposunun tədqiqi sahəsində aparılmış araşdırmalar nəticəsində formalaşmış nəzəri-metodoloji baza.

Dissertasiyada tarixi, müqayisəli və tipoloji yanaşma üsulları tətbiq olunmuşdur. “Koroğlu” və “Manas” orta əsrlər dastanları kimi öz dövrünün tarixi hadisələri ilə yaxından bağlı mətnlərdir. Qəhrəmanlıq dastanının aktuallığı tarixi şəraitlə müəyyənləşir. Xalqın qəhrəmanlıq ruhunun daşıyıcısı olan dastanlar tarixi şəraitdən asılı olaraq, xalqın həyatında böyük rol oynaya bilir. Hər iki dastanda xalqın tarixi taleyi ilə bağlılıq özünü aparıcı xətt kimi göstərir. Buna görə də hər iki dastana tarixi kontekstdə yanaşma zəruridir. “Koroğlu” və “Manas” dastanlarında hərb mövzusunun mifoloji semantikasının tədqiqi mövzuya bilavasitə müqayisəli yanaşmanı zərurətə çevirir. Digər tərəfdən hər bir müqayisə həm də tipoloji cəhətlərin müəyyənləşdirilməsi ilə nəticələnir. Beləliklə, dissertasiyada, əsasən, tarixi-müqayisəli və müqayisəli-tipoloji tədqiqat metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yenilikləri.** Dissertasiyada bir çox mühüm yeni elmi nəticələr əldə olunmuşdur. Onları aşağıdakı kimi qruplaşdırmağı məqsədəuyğun hesab edirik:

-Türk folklorunda hərb və döyüş motivləri “Koroğlu” və “Manas” dastanlarında Azərbaycan və qırğız xalqlarının hərb tarixi və döyüş mədəniyyəti kontekstində tədqiq olunmuş;

-“Koroğlu” və “Manas” dastanlarında hərb tarixi və döyüş mədəniyyətinin təcəssümü məsələləri öyrənilmiş;

-“Koroğlu” və “Manas” dastanlarında hərbi obraz və motivlərin mifik kultlarla əlaqəsi öyrənilmiş;

-Döyüş fəndləri və silah kultlarının mifik kökləri müəyyənləşdirilmiş;

-Çənlibelin mifik hərbi məkan semantikası tədqiq olunmuş;

-Döyüş vasitələri və savaş ruhunun mifoloji semantikası tədqiq edilmiş;

-Hər iki dastanda əsas qadın qəhrəmanların mifik ana funksiyası ilə əlaqəli olduğu aşkarlanmış;

-Koroğlu və Manasın mifik su və Bozqurd kultları ilə əlaqəsi öyrənilmiş;

-"Koroğlu" və "Manas" dastanlarında hərb-qəhrəmanlıq ruhunun bədii tərənnümünün mifoloji semantikası tədqiq edilərək əsas xüsusiyyətləri aşkar edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan mövzu aşağıdakı müddəalar əsasında araşdırılmışdır:

1. "Koroğlu" və "Manas" dastanlarının Azərbaycan və qırğız xalqlarının hərb tarixi və döyüş mədəniyyəti ilə sıx şəkildə bağlı olması;

2. Hər iki dastanda döyüş fəndləri və silah kultlarının mifik köklərə malik olması;

3. Çənlibelin mifik planda dağ kultu ilə bağlılığı;

4. Döyüş vasitələrinin mifik semantikaya malik olması;

5. Qadın qəhrəmanların mifik ana funksiyası ilə əlaqəsi;

6. Koroğlu və Manasın mifik su, o cümlədən Bozqurd kultu ilə əlaqəsi;

7. "Koroğlu" və "Manas" dastanlarında hərb-qəhrəmanlıq ruhunun bədii tərənnümünün mifoloji semantika ilə bağlılığı;

8. "Koroğlu" dastanında hərb mövzusunun bədii-emosional ifadəsinin mifik məna çalarlarına malik olması;

9. "Manas" dastanında qəhrəmanlıq ruhunun poetik ifadəsinin mifik semantika daşıması;

10. Hər iki dastanda qəhrəman obrazının bədii tərənnümünün mifik qəliblərə söykənməsi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işi eyni zamanda həm nəzəri, həm də praktiki aktuallığa malikdir. Aparılmış tədqiqatın nəzəri əhəmiyyəti təhlillər yolu ilə əldə olunmuş nəticələrin eposşünaslıqda tətbiq olunma imkanları ilə müəyyənləşir. "Koroğlu" və "Manas" dastanlarının müqayisəli tədqiqi təkcə hərb mövzusunun mifoloji semantikasının araşdırılması ilə məhdudlaşmır. Burada öz həllini gözləyən çoxsaylı problemlər vardır. Belə hesab edirik ki, mövcud dissertasiyada əldə olunmuş nəzəri qənaətlər problemlə bağlı gələcək tədqiqatlar üçün nəzəri baza rolunu oynaya bilər.

Tədqiqat işinin praktiki əhəmiyyəti özünü tədris prosesində göstərə bilər. Ali məktəblərin filologiya fakültələrində "Koroğlu" və "Manas" kimi nəhəng eposlar həm folklorun, həm də türk xalqları ədəbiyyatının tədrisi prosesində öyrədilir. Belə hesab edirik ki, mövcud dissertasiyadan bu mövzuların öyrədilməsində əlavə praktiki dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu, işdə əldə edilmiş əsas nəticələr, başlıca qənaət və yeniliklər müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə Azərbaycan Ali Attestasiya Komissiyasının tələblərinə uyğun nəşrlərdə çap etdirdiyi əsərlərində öz əksini tapmışdır.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində türk xalqları ədəbiyyatı və folklorunun tədrisində əlavə vəsait kimi istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi AMEA Folklor İnstitutunun Aşıq yaradıcılığı şöbəsində hazırlanmışdır. Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 09 fevral 2018-ci il (prot. №1) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası nəzdində Humanitar Elmlər üzrə

Problem Şuranın 12 may 2021-ci il tarixli (prot. №1) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Tədqiqatın giriş, üç fəsil və nəticədən ibarət olan ümumi həcmi: 247766 işarə (Giriş: 15078; I fəsil: 77610 işarə; II fəsil: 93488 işarə; III fəsil: 52583 işarə; Nəticə: 9004 işarə).

## TƏDQİQAT İŞİNİN MƏZMUNU

**"Giriş"**də tədqiqatın aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti verilir, müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur, aprobasiya və tətbiq edilməsinə aid məlumatlar verilir.

Tədqiqat işinin **""Koroğlu" və "Manas" dastanlarında Azərbaycan və qırğız xalqlarının hərb tarixi və döyüş mədəniyyəti"** adlanan birinci fəsli dörd paraqrafdan ibarətdir. Birinci fəsildən məlum olur ki, "Koroğlu" və "Manas" dastanlarında hərb mövzusunun mifoloji semantikasının tədqiqi problemə ilk növbədə hər iki xalqın hərb tarixi və döyüş mədəniyyəti kontekstində baxmağı tələb edir. Çünki dastan janrı bütün bədii məzmunu ilə reallığa söykənir. Ancaq dastanda birbaşa tarix axtarmaq olmaz: tarix dastanlaşarkən bədiiləşməyə məruz qalır. "Koroğlu" və "Manas" dastanları onları yaradan xalqların tarixi ilə sıx şəkildə bağlıdır.

***"Hərb tarixinə qısa bir nəzər"*** adlanan birinci paraqrafda Azərbaycanın hərb tarixi haqqında məlumatlar öz əksini tapmışdır. Bu yarımfəsildən məlum olur ki, döyüş, savaş anlamında olan hərb tarixi dünyanın ən qədim dövrlərinə gedib çıxır.

Azərbaycanda hərb tarixi qədim dövrlərə gedib çıxır. Manna və Midiyada baş vemiş hərbi-siyasi hadisələr haqqında ilk məlumatlar e.ə. IX-VI əsrlərə aid Qədim Şərq yazılı abidələrində verilir.

Azərbaycanın hərb tarixinə ərəblərin Azərbaycana işğalçı yürüşləri, VII-XIII əsr ərəb-türk müharibələri, IX əsrlərin əvvəllərində Babəkin rəhbərliyi ilə xürrəmilərin Xilafətə qarşı azadlıq müharibəsi, XI-XIII əsrin əvvəllərində Səlcuqlar və Atabəy Eldəgizlər dövründə baş vermiş hərbi hadisələr, monqol işğalları və onlara qarşı aparılan mübarizələr, XIII-XVII əsrlərdə mövcud olmuş Hülakülər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi

dövlətlərinin apardıqları müharibələr, XIX-XX əsrin əvvəllərində Azərbaycanda baş verən hərbi hadisələr, 1917-1918-ci illərin hərbi-siyasi hadisələri, müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illərdə silahlı qüvvələrinin quruculuğu dövründə baş vermiş döyüşlər, 1920-ci ilin sovet işğalı, 1939-1945-ci illərdə II Dünya müharibəsi dövrü, XX əsrin sonlarında Azərbaycanın müstəqillik uğrunda mübarizəsi, yeni ordu quruculuğu, Ermənistanın növbəti işğalçılıq siyasəti və işğal olmuş Azərbaycan torpaqları uğrunda gedən müharibə və mübarizələr daxildir. Xalqımız öz mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, qəhrəmanlıq nümunələri göstərib. "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" kimi xalq qəhrəmanlıq dastanlarında uzaq və yaxın keçmişimizdəki hərb tariximiz bədiiləşərək əbədiləşmişdir.

***"Türk epik folklorunda hərb və döyüş motivləri"*** adlanan ikinci paraqrafda böyük bir tarixi ərazidə yaşayan türk xalqlarının yaratdığı folklor nümunələrindən və bu zəngin xəzinənin qiymətli incilərindən olan dastanlardan söhbət açılır. Tarixi faktlar göstərir ki, türk xarakterindəki qoçaqlıq, hünərvərlik, döyüşkənlik və cəsurluq kimi qəhrəmanlıq keyfiyyətləri türkün şanlı hərb tarixi ilə bağlıdır. Yurdu, vətəni yadelli işğalçıların istilasından qorumaq məcburiyyəti, eləcə də türk xarakterinin yaradıcı, sahmanlayıcı ruhunu dünyaya yaymaq məqsədi türk xalqlarını tez-tez müharibələrə sürükləmişdir. "Savaşda pələng, barışda mələk" olan türklər əmin-amanlıq içində yaşamaq üçün müharibəyə həmişə hazır olmuşlar. Prof. Y.Qasımovun söylədiyi kimi, *"Türklər əsrlər, hətta minilliklər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş,*

*zaman-zaman dünyanın pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar"*[3].

Milli mənliyi, qədim mədəniyyəti, həyata baxış tərzini özündə yaşadan "Bilqamıs dastanı", Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud", "Oğuz xan", "Ərgənəkon", "Köç", "Alpamış", "Maaday Qara", "Manas", "Koblandı Batır", "Koroğlu" kimi ədəbi nümunələr ədəbi-tarixi varislik, vahid təfəkkür və həmrəylik kimi hissləri günümüzə qədər gətirib çatdırmışlar.

Məlumdur ki, hər bir xalqın vətəninin taleyini düşünən, azadlığı və gələcək xoşbəxtliyi uğrunda mübarizə aparan epos qəhrəmanları olur. Bu qəhrəmanların bəşəri arzuları zamana görə dəyişir, bir-birindən fərqli, bənzərsiz şəkildə eposlarda öz bədii əksini tapır. Məsələn, şumerlərin "Bilqamıs" dastanının qəhrəmanı Bilqamısın arzusu elə bir ot axtarıb tapmaqdır ki, onun xalqı həmişə cavan qalsın, əbədi həyat sürsün, ölümsüz yaşasın.

Dastanlarda ilkin tanrı və tanrılaşdırılmış insanlar, gün işığı, su köpüyü və ağacdan doğulmuş uşaqlar, türklərin çarpışma və savaşları xüsusi yer tutur.

Qəhrəmanlıq dastanlarında döyüş motivlərinin aparıcı fonu təşkil etməsi aşağıdakı səbəblərlə müəyyənləşir:

Birincisi, qəhrəmanlıq dastanı janr poetikası baxımından qəhrəmanlıq mövzusunun daşıyıcısıdır. Yəni savaş, döyüş, hərb baş qəhrəmanın qarşısında duran epik missiyanın həyata keçirilməsinin əsas vasitəsidir. Baş qəhrəman qılınc qəhrəmanıdır. O, bütün problemələri qılıncının güçünə həll edir. Savaş, hərbi güc və taktika qəhrəmanın mövcudluğunun əsas atributlarıdır. O, məhəbbət dastanının qəhrəmanından fərqli olaraq yer üzünə savaşmaq üçün gəlmişdir.

---

[3] Qasım, Y. Epos və hərb // Elm.-2007.-2 oktyabr.-s.12.

İkincisi, qəhrəmanlıq dastanı türk xalqlarının tarixində "dastan epoxası" adlanan dövrün məhsuludur. Bu epoxa türk etnosunun Avrasiya materikində öz varlığını siyasi, iqtisadi, ictimai, mədəni baxımdan var etmək uğrunda əsrlər boyunca apardığı qanlı müharibələr dövrüdür. Türk qılıncı ilə savaşır, türk ozanları da onların savaşlarını dastanlara çevirirdilər. Bu cəhətdən, qəhrəmanlıq dastanları türkün hərb tarixinin bədii salnaməsidir.

Ə.Əsgər və M.Qıpçaq göstərirlər ki, *"döyüşçü həyat tərzi yaşayan bu xalqlar zəngin döyüş mədəniyyətinə malik idilər. Bunu ağızdan-ağıza keçən hər bir nağılda, mahnıda, dastanda və bir çox digər folklor nümunələrində görmək olar. Barmaqları ilə saf daşdan kəsik qoparan, güləş zamanı barmaqlarını qəniminin ətinə yedirdib onu diz çökdürən, öküzü başı üstünə qaldıran və ya bir zərbə ilə öküzü yerə sərən şir biləkli bahadırlar haqqında söhbətlər xalq arasında geniş yayılmışdır. Həmin söhbətlərin arxasında türk savaş ənənələrinin müəyyən əlamətləri gizlənmişdir"*[4].

Türk qəhrəmanlıq tarixi türk-dastançılıq ənənələrində qorunub saxlanmış, oğuz-aşıq, akın sənəti vasitəsilə günümüzə qədər gəlib çatmışdır. Fil.e.d. İ.Sadıq yazır: *"Bu tarixi min illərlə ölçsək yanılmarıq. Burada bir fikir də vurğulanmalıdır ki, türk dastanları əsasən ayrı-ayrı tarixi şəxsiyyətlərin, əsasən sərkərdələrin qəhrəmanlıq və şücaətinə həsr olunmuşdur. Xalq öz qəhrəmanlarının unudulmaması və gənc nəsillər arasında onun daha da güclənməsi üçün onların adına dastanlar qoşmuşdur"*[5].

Bütün bu keyfiyyətlər türk folklorunda bədii boyalara bürünərək öz izlərini saxlamışdır. Bu paraqrafda gəldiyimiz

---

[4] Əsgər, Ə.D. Türk savaş sənəti / Ə.Əsgər, M.Qıpçaq. - Bakı: Yazıçı, - 1996. - s.18

[5] Sadıq, İ.H. Azərbaycan "Koroğlu" eposu / İ.H.Sadıq. - Bakı: Elm və Təhsil, - kitab 1. - 2015. - 247 s.

qənaətə görə, qəhrəmanlıq dastanları hər bir türkə miras qalan və bu gün də onun həyat tərzini yönəldən davranış mədəniyyətimizi ifadə edir[6].

I fəslin ***““Koroğlu” dastanında hərb tarixi və döyüş mədəniyyəti***” adlı növbəti paraqrafında Azərbaycanın XVI-XVII əsr hərb tarixi gözdən keçirilir və “Koroğlu” dastanında həmin dövrlərdə baş verən hadisələrin bədii ifadəsi haqqında məlumat verilir. “Koroğlu” dastanında mövcud olan mifik lay onun tarixlə bağlılığının üzərinə qətiyyən kölgə salmır. Mifik cizgilərə malik olan Koroğlu hər nə qədər əfsanəvi obraz kimi təqdim olunsa da, xalq onu özünün real qəhrəmanı kimi qəbul edir.

Bütün türk xalqlarının bədii düşüncəsi və mifik təsəvvürlərində Koroğlu mifik bir aləm yaratmışdır. Tədqiqatçı, fil.ü.f.d. E.Abbasov yazır: *“Koroğlu” dastanı epik məlumatın zənginliyi baxımından bütün oxşar abidələrdən fərqlənir. Bu fərq özünü hər şeydən əvvəl onda göstərir ki, “Koroğlu” iri bir epik silsilə təşkil edir və konkret tarixdən daha çox dövrlərin və epoxaların qəhrəmanlıq ruhunu, etnik emosiyasını və milli mənəviyyatını yaşadır”*[7].

Koroğlu bir dastan qəhrəmanı kimi xalqa, onun həyatına, mənəvi dünyasına o qədər yaxın və doğmadır ki, Koroğlu şeirlərini və sonralar Koroğlu ilə bağlı rəvayətləri izləyənlərin demək olar ki, hamısı Koroğludan tarixi şəxsiyyət kimi bəhs etmişlər. Onun haqqında yaranmış rəvayətlər bunu aydın şəkildə göstərir. “Koroğlu” dastanı türk xalqlarının şifahi xalq yaradıcılığını əhatə etsə də, onun əsas süjeti Azərbaycanda yaradılmışdır. Baş vermiş hadisələr sonradan folklorlaşdırılmışdır. Prof. S.Pirsultanlı rəvayətlərə əsaslanaraq

---

[6] Пашаева, С.С. Военная тема и четыре стихии (первоосновы) в эпосах «Короглу» и «Манас»”// Казахский Национальный Университет имени Аль-Фараби: Филология сериясы. - 2020. - No4. - с. 157-163

[7] Abbasov, E.H. Koroğlu: poetik sistemi və strukturu (Paris nüsxəsi əsasında) / E.H.Abbasov. - Bakı: Nurlan, - 2008. - s.4

yazırdı ki, Koroğlunun yarasından axan qana boyanmış qayalar, Qıratın ayağını yaralayan daşlar bu gün “Qanlı daş”, “Yaralı daş“lar adları ilə tanınırlar.

Bir qəhrəmanlıq dastanı kimi “Koroğlu” özündən sonra yaranmış qəhrəmanlıq dastanlarının yaranmasına təsir etmişdir. “Qaçaq Kərəm”, “Qara Tanrıverdi”, “Qandal Nağı”, “Qaçaq Nəbi”, “Qaçaq Süleyman”, “Hacı Tağı”, “Qara Söyün”, “Pəhlivan İsrafil”, “Səttarxan” və s. dastanlarımızdakı ayrı-ayrı səhnələrin bədii təsvirindəki bənzərlik və yaxınlıq bunu bir daha sübut edir.

Beləliklə, “Koroğlu” dastanı mifoloji baxışların izlərini özündə saxlasa da, əslində, daha çox tarixi hadisələrdən söhbət açır. Tarixi cizgilər bu dastanda o qədər realdır ki, tədqiqatçılarda bəzən çaşqınlıq da yaradır. Heç şübhəsiz ki, dastanda tarix əks olunmuşdur. Ancaq bu tarixi heç vaxt hərfi mənada qəbul etmək olmaz. Unutmaq olmaz ki, tarix bu dastanda bütün şəxsiyyətləri və hadisələri ilə birlikdə xalqın bədii təxəyyülündən keçərək obrazlaşmışdır. Yəni, dastandakı obrazlar ilk növbədə bədii obrazlardır. Ancaq hər bir bədii obraz özündə real tarixi qəhrəmanı, yaxud qəhrəmanları ümumiləşdirir. Burada tarix və bədiilik bir-birinə qovuşmuşdur. Dastanı təhlil edərkən bu cəhət hökmən nəzərə alınmalıdır. Əgər bir tədqiqatçı mətndə tarix axtarırsa, onda mətnin üstündən bədii örtüyü qaldırmalı, bədii obrazların dərinliklərinə enməli, bədiilik axtarırsa, onda həmin bədii örtüyün altında tarixin yatdığını unutmamalıdır.

Bu fəslin ***““Manas” dastanında hərb tarixi və döyüş mədəniyyəti”*** adlı paraqrafı qırğız xalqının hərb sənətinin milli-estetik təfəkkür və əxlaqi-mənəvi dəyərləri haqqında söhbət açır.

Qırğız türkləri də çox zəngin şifahi ədəbiyyata malikdirlər. Bu ədəbiyyatın “Bəybəkəy”, “Saksakəy” və “Şirildah” adlı əsərləri ilk növbədə mənzum qəhrəmanlıq hekayələri kimi

“akın” adlanan aşıqlar tərəfindən nəsildən-nəslə ötürülmüş, zəmanəmizə qədər gəlib çatmışdır. Lakin bu sırada dünya şöhrətli “Manas” dastanı xüsusi yer tutur.

“Manas” eposu qırğız siyasi, sosial, hərb və mədəniyyət tarixi ilə sıx şəkildə bağlıdır. Eposun hər bir personajı cəmiyyətin sosial-siyasi, mədəni həyatında müəyyən yer tutur. Türk qəhrəmanlıq eposlarının görkəmli tədqiqatçısı V.Jirmunski “Manas”dakı hadisələrin əsasən IX-X əsrlərin məhsulu olduğunu bildirir[8].

F.ü.f.d.A.Cəmil yazır:*““Manas” trilogiyası türk xalqlarının bədii təfəkkür tarixində öz tutumu və siqləti ilə seçilən möhtəşəm ədəbi abidələrdən biridir. Böyük və Ulu türk “gövdəsindən” şaxələlənən qırğız-qıpçaq “budağının” bu əbədi söz abidəsi soyköklərimizdən məlumat verən canlı ensiklopediyadır”[9].*

Belə hesab edirik ki, Azərbaycan və qırğız xalqlarının “Manas” və “Koroğlu” kimi qəhrəmanlıq salnamələri öz döyüş ənənələri olan mübarizə yolları və vasitələrini də əks etdirən sənət əsərləri olmaqla yanaşı, türk hərb sənətinin ortaq mənəvi dəyərlərinin daşıyıcılarıdırlar[10].

Dissertasiyanın ikinci fəsli **““Koroğlu” və “Manas” dastanlarında hərb xarakterli obraz və motivlərin mifik kultlarla bağlılığı”** adlanır. Fəsildən aydın olur ki, türk hərb tarixi mifik kultlarla sıx şəkildə bağlıdır. Həmin bağlılıq “Koroğölu” və “Manas” dastanlarında hərb mövzusunun mifoloji semantikasında öz əksini tapmışdır.

---

[8] Жирмунский В.М. Тюркский георический эпос / В.М. Жирмунский. - Ленинград: Наука, - 1974. - с.71

[9] Cəmil, A. Ümumtürk folklorunun “Manas” zirvəsi (ön söz) / Manas: Dastan. – Bakı: Nurlan, 2009. – s.7.

[10] Paşayeva, S.S. Türk hərb sənətinin “Manas” və “Koroğlu” kökləri // Bakı Qızlar Unversiteti: Elmi Əsərlər. - C.II.2020, No4, s. 59-64.

İkinci fəslin ***“Döyüş fəndləri və silah kultlarının mifik kökləri”*** adlı birinci paraqrafı “Koroğlu” və “Manas” dastanlarında döyüş sənəti növlərinə, bu zaman istifadə olunan fəndlərə və silahlara bir kult kimi olan inanclardan bəhs edir.

“Koroğlu” və “Manas” dastanlarında istifadə olunan dəyənək, toppuz, toxmaq, koxa, çomaq, yaba, sapand, sapand daşı, yay-ox və s. silah növlərinin hamısı birmənalı şəkildə mifik silah kultu ilə bağlı idi.

“Koroğlu” və “Manas” dastanlarında tez-tez adları çəkilən Misri və Açalbars da qəhrəmanların ömür-gün yoldaşı, döyüşlərdə və uzaq səfərlərdə dostu, silahdaşı hesab olunurdu. Həm Misri qılınc, həm də Açalbarsın hazırlanması və qəhrəmanlara verilməsində mifik düşüncənin rüşeymləri durur. “Koroğlu” dastanında verilən məlumata görə Misri qılınc ildırım parçasından düzəldilib.

Döyüşlərdə Koroğlunun yarağı olan qılıncın səma cisimləri ilə bağlılığı var idi. Misri qılınc obrazını yaradan xalqın düşüncəsində bu döyüş vasitəsi zülmdən, istismardan qurtarmaq üçün Tanrı-Müqəddəs nur tərəfindən insanlara göndərilmiş bir xilasedici qüvvə kimi qəbul olunurdu. Dilçiliklə bağlı tədqiqatlarda (prof.M.Adilov) Misri qılıncın adının Mitra Allahı-Mitr-Mehrlə bağlı olduğu gğstərilirdi. Misri qılınc “Koroğlu” dastanında Azərbaycan xalqının yaddaşında və dini düşüncəsində mitraizm dini görüşlərinin yaşamasından xəbər verir. Koroğlu göydən gəlmiş bir silahın daşıyıcısıdır. Bu silah ildırım daşından düzəldilmişdir. Demək, silahı ona İldırım tanrısı yollamışdır. Qılınc kultunun aradan qalxması Koroğlunun mifik himayədən məhrum olması ilə nəticələnir.

Koroğlunun bütün gücü atına və sehrli qılıncına bağlı idi. Əgər Koroğlu qılıncını yerə qoyursa, bu, artıq onun bir “qəhrəman” ömrünün tamamlanması demək idi. Koroğlunun Misri qılıncı belindən açması epik və mifoloji olmaqla iki məna daşıyır:

1. Bu, epik məna baxımından Koroğluluq epoxasının başa çatması deməkdir. *"Koroğlunun Misri qılıncını dəmirdən istehsal olunan və fövqəladə keyfiyyətlərlə təchiz olunmuş bozqır silahlarının son versiyalarından biri kimi dəyərləndirsək, qılıncın yerinə tüfəngin gəlməsi hadisəsinin bir dövrün başa çatmasını təmsil etməsi şəklində asanlıqla dəyərləndirə bilərik"*[11].

2. Bu, mifik məna baxımından "qəhrəmanın ölümünü" gerçəkləşdirir. Əlbəttə, bu, Koroğlunun bir insan kimi fiziki ölümü deyildir. Lakin bu epizod Koroğlunun məhz bir qəhrəman kimi ölümü deməkdir. Çünki Koroğlu qeyri-adi gücə malik qəhrəman idi. Onun bütün gücü atına və sehrli qılıncına bağlı idi. Atı və qılıncı qəhrəmanı ölümlərdən qoruyur, ona hamilik edir, qələbələrə çatdırırdı. Əgər Koroğlu qılıncını yerə qoyursa, bu, artıq onun bir "qəhrəman" ömrünün tamamlanması deməkdir.

"Manas" dastanında Manasın ən yaxın silahdaşı və qollarının qüvvəti artıq adını çəkdiyimiz kimi Açalbarsdır. Aykoca adlı mömin bir şəxs Manasa Açalbars adlı qılınc bağışlayır. O, Məhəmməd Peyğəmbərlə Manas arasında bir vasitə kimi çıxış edir. Aykoca beş yüz il səbrlə gözləyib, nəhayət Məhəmməd Peyğəmbərin əmanətini Manasa verir.

"Manas" dastanında da qılınc motivində od-nur yaxından iştirak edir. Bu, həmin silahların mifik mənşəyini, totem hamilər, tanrılar dünyası ilə bağlılığını göstərir.

***"Ordu quruluşu, taktika və mifik hərbi məkan"*** adlı paraqrafda "Koroğlu" və "Manas" dastanlarında ayrı-ayrı zaman kəsiyində Azərbaycan və qırğız xalqlarının hərbi keçmişi-qoşunların təşkili üsulları, hərbi intizam, strategiya və taktika,

---

[11] Duymaz, A. At, Silah ve Alplıq Ekseninde Bozkır Kültürünün Sonu ve Köroğlu Destanı // VI Uluslararası Köroğlu Sempozyumu (10-12 Ekim 2016 Bolu). - İstanbul: 2016, s. 95

silahlanma və döyüşçülərin zirehləri və onların mifoloji cizgiləri haqqında məlumat verilir.

Yaranma tarixinə görə son orta əsrlər dövrünü əhatə edən "Koroğlu" dastanında dövlətin, mövcud ictmai-siyasi quruluşun əsgəri təşkilatı haqqında da məlumat verilir.

"Koroğlu" dastanında igidlərin məskəni kimi təsvir olunmuş Çənlibel öz mifik semantikası baxımından diqqəti cəlb edir.

"Manas" dastanında qırğızlarda mövcud olmuş ordu quruluşu haqqında məlumat əldə etmək mümkündür. Məsələn, "Almambet onbaşı, yüzbaşı, əllibaşı və minbaşını çağırıb əsgərləri dəftərə qeyd etdirdi"; "Orduda bir təlaş başladı, onbaşı, yüzbaşı, minbaşı, çoro başılar irəli-geri hərəkət edərək əsgərlərini toplamaqda çətinlik çəkdilər. Qırx çoronun biri olan Tazbaymat onbaşı idi... Tazmaybatın bir adamı yoxa çıxdıqdan sonra yüzbaşı onu minbaşının yanına, minbaşı tümənbaşına, tümənbaşı xanın yanına apardı"; "Yorulan igidlərin rahatlığını pozmasın deyə, davul çalmadan keşikçilərinin köməyi ilə Bakay, Koşoy və Almambet bahadırları, qırx çoronu, on iki xanın əmirlərini çağırıb söhbət etdi" və s.[12]

Bu fəslin növbəti "***Çənlibel-mifik hərbi məkan kimi***" adlanan paraqrafında Koroğlu və dəlilərinin yaşadığı, təlim məşqlərinin keçdiyi ərazinin - Çənlibelin mifoloji baxışlarla da sıx bağlılığı araşdırılır, onun harada yerləşməsi, nə üçün Çənlibel adlanması barədə maraqlı mülahizələr nəzərdən keçirilir.

"Koroğlu" eposunun əsas sütunlarından biri olan Çənlibel türk inanc tarixindən xəbər verir. Bu dağ coğrafi və hərbi baxımdan xüsusi əhəmiyyət daşımağına baxmayaraq, Çənlibel mifoloji baxışlarla da sıx bağlıdır. Türk xalqlarında dağ

---

[12] Manas dastanı / Nəsr variantının qurucusu: K.Yusupov, tərcümə edəni A.Cəmil. - Bakı: Nurlan, - 2009. - 290 s.

əcdaddır, mifik hamidir. Dağa mifik baxış, onu əcdad kimi də düşünməyə gətirib çıxarmışdır. Koroğlu dara düşəndə bu dağlara sığındığından, onları anası kimi qəbul etmişdir. Qeyd etmək lazımdır ki, "Çən" sözü Çin/Çim/Çen/Çem kökündən törəmişdir. Dumana bürünmüş, günəşin doğulduğu yer mənalarını daşıyır. "Alı kişi vaxtilə dağ inamı, dağ ruhu, dağ tanrısı, eləcə də günəşlə bağlı olmuş, bu inamların bir sıra mifik səciyyələrini özündə qoruyub saxlamışdır"[13]. Çənlibel dağ, su və ağac, işıq kimi bütün müqəddəs ünsürləri özündə toplamışdır. Çənlibel sanki bir ana kimi Koroğlu və onun igidləri qoynunda yerləşdirdiyindən, təlim-tərbiyə etdiyndən, bir ata kimi isə onları Şər qüvvələrdən, düşmənlərdən mühafizə etdiyindən kosmoqonik Göy-Ata kompleksinə, yer və onunla bağlı olan elementlər, o cümlədən Dağ-Ana kompleksinə yaxındır və onunla sıx bağlıdır.

Beləliklə, tədqiqatlar göstərir ki, Çənlibel tarixi olduğu qədər epik-mofloji semantikaya da malikdir. Çənlibel digər türk xalqlarının dastanlarında da mifoloji məkan kimi xarakterizə olunur. *"Tahir Kahhar özbək variantı olan"Göroğlu" dastanında variantlarında igidlərin yurdu sayılan Çənbibelin əfsanəvi, bədii-mifoloji məkan olması qənaətinə gəlmişdir"[14]*.

İkinci fəslin ***"Döyüş vasitələri və savaş ruhunun mifoloji semantikası"*** adlanan paraqrafında "Koroğlu" və "Manas" dastanlarında istifadə edilən döyüş vasitələrinə münasibətin, hər iki sərkərdənin düşmənlə üzbəüz gəldiyi vaxtlarda nifrət və qələbəyə inam hisslərinin mifoloji köklərinə münasibət bildirilir.

Koroğlu öz dəlilərinin fiziki sağlamlığına və hərbi ustalığının mükəmməlləşməsinə, hərbi təlimlərə böyük qiymət

---

[13] Seyidov, M. M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.M.Seyidov. - Bakı: Yazıçı, - 2018. - s.229

[14] Kahhar, T. Köroğlunun Yurdu: Özbek Göroğlu Destanlarında Çembil // IV Uluslararası Bolu Kalk Kültürü ve Köroğlu Sempozyumu Bildirileri.- Ankara: Akçağ Yayınları, 2015. s.570

verirdi: "*Koroğlu boş vaxtlarında həmişə dəlilərlə məşq eləyib təlim keçərdi. At minmək, nizə atmaq, qılınc vurmaq, qalxan tutmaq, ox atmaq onların peşəsi idi. Onlar da bu təlimdən öyrənirdilər*"[15].

Belə bir təsvirə "Manas" dastanında da rast gəlirik: "*Məşq edən əsgərlər at oynadıb düşmən ilə savaşmağı, mizraqdan, ox və qılıncdan istifadə etməyi, baltayla vurmağı, xəncərli əllə yumruqlaşmağı, savaş silahını hazırlamağı öyrəndilər*"[16].

Türk hərbi sistemi içərisində at ən önəmli vasitə idi. Məhz at bahadırı qəhrəmana çevirirdi. Ata olan məhəbbət və dostluq hissi insanların miflərlə dolu dünyalarında mühüm yer tuturdu.

At türk mifologiyasında ən vacib atributlardan biri hesab olunurdu. Prof. R.Qafarlı yazır ki, *"şərq xalqlarının inancında at daha çox od və işıqla əlaqələndirilir. Müsəlman intibahına aid poeziyada vurğulanır ki, şəfəq atları çaparaq qaranlığı əridir, dan yeri ağarır, hava işıqlanır və dünya bir gün aydınlığa qərq olur"*[17].

At qəhrəmanı xilas edən, qaranlıq dünyadan işıqlı dünyaya aparan bir vasitə, sadiq dostu idi. Şaman türklərinə və əski monqollara görə atın özü göylərdən qanadlı gəlmişdir.

Deyilənlərdən məlum olur ki, Koroğlunun Qırat və Dürat adlı döyüş atları od kultu ilə bağlıdır. Dastandan məlum olur ki, əgər Koroğlunun səhvi olmasa idi, Qırat və Dürat od qanadlı atlar olacaqdı.

"Manas" dastanında da ümumtürk folklorunun rüşeymlərindən irəli gələn bir motiv önə çıxır. Manas və onun atı Ağqula süd qardaşlarıdır. Ağqulanı Manasdan ayırmaq mümkün

---

[15] Koroğlu (dastan) / - Bakı: Lider nəşriyyatı. - 2005. - s.64

[16] Manas dastanı / Nəsr variantının qurucusu: K.Yusupov, tərcümə edəni A.Cəmil. - Bakı: Nurlan, - 2009. - s.217

[17] Qafarlı, R. O. "Kitabi-Dədə Qorqud" eposundakı at kultunun sirrini açan böyük alim və vətəndaş / Tanrıverdi Ə. "Dədə Qorqud kitabı"nda at kultu. - Bakı: Elm və təhsil, - 2012. - s.5

deyildir. Ağqula və Manas bir-birini tamamlayırlar. Manasın anası Çıyırdı Ağqulanı da öz övladı kim qəbul etmiş, döşlərindən süd vermişdir. Bu epizod türk xalqlarının taleyində atın nə qədər mühüm rol oynadığından xəbər verir. Alpamışın Bayçibar, Koroğlunun Qırat, Koblandının Tauburulu adlı atları da eyni özəlliklərə malikdir.

Manas hələ uşaq ikən mağarada qanadlı atlarla rastlaşır. Qonurbəyin də Alqara adlı atının qanadları vardır. Və o, hər dəfə çətinliyə düşəndə Alqara sahibinə kömək edir. Dastandakı atlar türk-monqol dastanlarının arxaik rüşeymlərini özlərində qoruyub saxlamışlar. Qanadları olmaqla yanaşı, bu atlar (Ağqula, Alqara, Çalquyruq, Çabadar, Tootoru, Açbuudan və d.) danışır, öz sahibləri və sadiq dostları üçün od, yemək əldə edə bilirlər.

Ox da mifik semantikaya malikdir. Ox tale semantemi ilə sıx bağlıdır. İgidlər evlənərkən ox atır, ox hara düşürdüsə, orada özlərinə yurd salırdılar. Türklər inanırdılar ki, oxları ildırım tanrısı yollayır[18].

Əsgərlərin döyüş ruhunu yüksəldən vasitələrin sırasında çağırış səslərinin böyük rolu olmuşdur. Məsələn, Koroğlunun nərəsi daxili bir qüvvənin, azadlığa çağırışın hayqırtısı idi. Onun səsindən düşmənlər qorxur, igidlər coşur, dağ-daş yerindən silkələnirdi. Özünü düşmən qoşununa vuran Koroğlunun nərəsi dastanın mübariz ruhuna daha bir qüvvət verir. Belə hesab edirik ki, Koroğlunun dəli nərəsinin dastanda onun döyüş texnikasına aid üsul kimi öz əksini tapması arxik-mifoloji cizgidir və mifoloji semantikaya malikdir.

Koroğlu Qoşabulaqda çimib, suyundan içəndən sonra yenilməz qəhrəmana və aşığa çevrilir. Bütün bu qabiliyyətlər və güc ona, göründüyü kimi, təbiət stixiyalarını (su, od, dağ) təmsil

---

[18] Мамедли, М. Парадигмы тюркского мифа. – Киев: Панорама, – 2018. –s.55-56.

edən mifik hamilər tərəfindən verilir. Koroğlunun nərəsi ona mifik əcdadlar tərəfindən bəxş edilmiş silah, mübarizə vasitəsidir. Bütün bu keyfiyyətlər və dəli nərə onu qədim şaman-qəhrəman kompleksi ilə əlaqələndirir.

Vuruşan tərəflərin döyüşdən qabaq bir-birlərinə hərbə-zoba gəlmələri mahiyyəti etibarilə sözlə döyüşdür. Şamanlar öz rəqibləri, yaxud qara qüvvələrlə magik söz vasitəsilə vuruşur, sözün magik-mistik qüvvəsilə bir-birlərini məğlub etməyə çalışırdılar. Dastandakı hərbə-zorbalar qədim şaman magik söz ritualının epik mətndə transformasiyaya uğramış şəkilləridir.

“Manas” dastanında verilən tuğ/bayrağın təsvirləri, sadəcə, epik xarakter daşımır. Bunun çox dərin mifoloji semantikası vardır. Qədim türklərdə bayraq yox, tuğ var idi. Bayraq tuğ anlayışının genişlənməsi, inkişafı ilə daha sonrakı yüzilliklərdə ortaya çıxmışdır. Türklərin dini inancları da bayraq anlayışının ortaya çıxmasında əsas rol oynamışdır.

Türk bayraqlarının üzərinə çəkilmiş günəş təsviri Tanrıya olan inamdan doğurdu.

Etnoqrafik qaynaqlardan və epik mətnlərdən aydın olur ki, qədim türklər hərbi tuğ/bayrağı canlı varlıq hesab edirdilər. Ona görə də qədim dövrdə hətta tuğa qurbanlar kəsilmişdir.

**“*Qadın qəhrəmanların mifik ana semantikası*”** adlanan paraqrafda hər iki dastanın qadın qəhrəmanlarının taleyinə, mifik ana cizgilərinə aydınlıq gətirilmişdir.

Həm “Koroğlu”, həm də “Manas” dastanlarında bir sıra maraqlı döyüşçü qadın obrazları yaradılmışdır.

“Manas” dastanında Manas Qarabörk və Akılay adlı qızlarla döyüşməli olur. Qarabörk kalmık sərkərdəsi Kayıp-danqanın qızıdır. Dastanın digər qüvvətli cəngavər qadın obrazlarından biri də Saykaldır. Onun Manasla qarşılaşması amazon qadınların döyüşlərini xatırladır.

“Koroğlu” dastanında qadınlar Çənlibelə gələn, azad sevgi əsasında ailə həyatı quraraq öz sevgililəri ilə çiyin-çiyinə

düşmənə qarşı mübarizə aparan qadınlardır. Nigar xanım, Məhbub xanım, Telli xanım və başqaları ox atmağı, qılınc çalmağı, at oynatmağı kişilərdən heç də pis bacarmırlar.

"Dədə-Qorqud" dastanında olduğu kimi "Koroğlu" və "Manas" dastanlarındakı qadın obrazlarıının bütün epik xarakterinin altında mifik kompleks durur. Bu kompleks iki cəhəti ilə əlamətdardır: 1. Qadın-kişi gücünü tarazlaşdıran yaradıcı başlanğıc kimı; 2. Qadın-mifik ana kimi.

Nigar xanım obrazı eyni zamanda mifik ana cizgilərinə də malikdir. Bunu onun öz doğma uşağının olmamasından görmək olur. Dastandan məlumdur ki, Nigar xanımın öz uşağı yoxdur. Eyvaz onun oğulluğudur.

Dastanda nəinki Nigar xanımın, eləcə də oraya özü gələn və evli olan xanımların da heç birinin uşağı yoxdur. Bu da Çənlibelin xüsusi mənaya malik epik məkan, daha doğrusu mifik məkan olduğunu ortaya qoyur. Koroğlu sanki bütün dəlilərin atası, Nigar xanım da anasıdır. Bunu təsdiq edən ən böyük fakt Koroğlunun öz dəlilərini bir-bir evləndirməsidir. Bütün bunlar eyni zamanda Nigar xanım obrazında dəlilərin anası funksiyasını görməyə imkan verir. Bu isə mifik ana arxetipi ilə bağlıdır. Mifiologiyada ilk ata arxetipi olduğu kimi, ilk ana arxetipi də var. Nigar xanım həmin ilk ana arxetipinin daşıyıcısıdır.

"Manas" dastanına gəlincə deyilənləri eyni dərəcədə Manasın qadınına da aid etmək olar. Manas öz igidlərinə atalıq etdiyi kimi, o da igidlərə analıq etməklə mifik ana arxetipini təcəssüm etdirir.

İkinci fəslin ***"Qəhrəman və mifik su kultu"*** adlanan paraqrafından məlum olur ki, "Koroğlu" və "Manas" dastanlarında suya inam vardır. Qəhrəman öz qüvvəsini su ilə bağlı mifik kökdən götürür. Məsələn, gözü çıxarılmış Alı kişinin oğlu Rövşənin gələcəkdə Koroğlu kimi məşhurlaşmasına Qoşabulağın köpüklü suyundan içməsi səbəb olursa, Manasın hələ doğulmazdan əvvəl Xızır peyğəmbər tərəfindən öz elinə,

ulusuna kömək edə biləcək, qüdrətli bir dövlət yaradacaq hökmdar-sərkərdənin doğulacağı xəbəri gəlir. Hər iki dastanda qəhrəmanlıq motivini, qəhrəmanlığa gedən yolu "su" kultu müəyyən edir. Bu kult türk xalqlarının mifik təfəkküründə özünə möhkəm yer almışdır.

Göründüyü kimi, bu su mifik keyfiyyətlərə malik sudur və mifik su dünyanın yaradılışının əsasında durur. Qoşabulağın suyundan içən Koroğlu yenidən mayalanır: əvvəlki insanın içərisindən yenilməz gücə malik qəhrəman və aşıq doğulur.

"Manas" dastanında da övladı olması üçün çoxlu dəvə, qısır qurban kəsdirən ana-Bəybikə Çıyırdıya övladının olması haqqında xəbəri həyat anlamını özündə daşıyan, dirilik bulağından su içmiş Xızır verir. Elə gələcək qəhrəmanın adını da o, qoyur. Manasın iki dəfə öləndən sonra dirilməsi də onun həyat ağacının məhz dirilik bulağından su içməsilə sıx bağlıdır. "Koroğlu" dastanının nəşr olunan variantlarında Koroğlunun döyüş həyatında mifik-əfsanəvi qəhrəmanlar görünmür.

Beləliklə, həm Koroğlunun, həm də Manasın qəhrəman kimi yenidən yaradılışının əsasında duran su kultu hər iki dastanda hərb motivi ilə sıx şəkildə bağlıdır.

**"*Qəhrəman və mifik Bozqurd kultu*"** adlı paraqraf isə yaranma tarixinə görə "Manas" dastanında əski türklərin simvolu olan qurd kultundan bəhs edir. Türk xalqlarının qədim dastanlarında qurd və ya Boz qurd xilaskar, türk tayfalarının hamisi və onların əcdadı kimi təqdim olunur. Qədim türklərin "Bozqurd", "Ərgənəkon dastanı", "Oğuz Xaqan dastanı", "Törəyiş dastanı", "Köç dastanı"nda göydən enən işığın içərisindən çıxan göy qurd yol göstərir, yardım edir və bununla da göylərin iradəsini həyata keçirir.

Qədim türk yazılı abidələrində, dastanlarında türklər atalarını qurda bənzədir, "qurd ana"dan törəmiş olduqlarını bildirirlər. Boz qurd məfhumu türk inanc sistemində uğur, ucalıq, cəsurluq rəmzidir".

“Manas”da iştirak edən qurd xilaskar kimi çıxış edir. Manas hələ on yaşında olanda dağda qoyunlarını otararkən qayalıqdan çıxan bir qurd onların quzusunu parçalayıb yeməyə başlayır. Manas cəld qurdu tutmaq istəyəndə o, qaçıb qarşıdakı qaranlıq mağaraya girir. Manas burada qanadlı atları olan, gözlərindən nur yağan qırx kişinin olduğunu görür. Manas onlardan qurdu görüb-görmədiklərini soruşur. Onlar həmin qurdun onlardan birisi olduğunu söyləyir və Manasın gələcəyini xəbər verirlər.

“Manas” və “Koroğlu”dan aydın olur ki, dastanlarda təsvir olunmuş hərb mövzusu, döyüş mədəniyyəti özünün mifoloji-arxaik semantikasını, mifoloji kökünü dörd ünsürdən-od, su, hava və torpaq haqqında olan baxışlardan götürmüşdür.

Dissertasiyanın üçüncü fəsli **““Koroğlu” və “Manas” dastanlarında hərb-qəhrəmanlıq ruhunun bədii tərənnümünün mifoloji semantikası”** adlanır. Fəsildən aydın olur ki, Azərbaycan və qırğız folkloru janr zənginliyinə malikdir. Epik folklor janrlarından-nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərbi-məsəllərdən başlamış dastanlara qədər bütün janrlarda işlənən mövzu və hadisələr, mədəni-məişət nümunələri müxtəlif tarixi dövrlərdə müxtəlif bədii obrazlarla ifadə olunmuşdur.

“Koroğlu” eposunda at və qəhrəman obrazları bir-birinə qırılmaz tellərlə bağlıdır. “Koroğlu”da Misri qılıncın sazın əvəzedicisi kimi təqdimi, heç şübhəsiz ki, dastandakı qəhrəmanlıq semantikasını, Koroğlunun qeyri-adiliyini qabartmağa xidmət edir.

Eposda qəhrəmanla onun atının birgə tərənnümü sadəcə epik tərənnüm olmaqla qalmayıb, mifik düşüncə ilə bağlıdır. Koroğlunun Qıratı tərənnüm etməsinin altında mifik məna gizlənir. Korğlu bu nəğmələrlə onu qoruyan, ona qələbələr bəxş edən mifik hamisinə öz minnətdarlığını ifadə edir. Koroğlu ilə

onu ana kimi qoruyan, öz qoynunda gizlədən Çənlibel arasında da bu cür mifik bağlar vardır.

Gəldiyimiz qənaətə görə, dastan poetik mətnlərin və nəğmələrin elementlərini, məzmun və forma ünsürlərini, qəhrəmanlığın, döyüşün ahəngini özündə bütün çalarları ilə əks etdirmişdir[19]

III fəslin ***""Koroğlu" dastanında hərb mövzusunun bədii-emosional ifadəsinin mifik məna çalarları"*** adlanan I paraqrafında göstərilir ki, Koroğlunun dəliləri onun döyüşçü-ləridir. Dastandakı bu qəhrəmanlar ümumən **dəli** adı ilə işarələnir. "Koroğlu" dastanında **dəlilik** xüsusi epik məna daşıyır. Bu, dastandakı qəhrəmanlıq ruhunun adıdır. Ən başlıcası isə dəli obrazları və dəlilik ruhu öz kökləri etibarilə birbaşa mifik məna ilə bağlıdır.

XVI əsrdə yaranmış "Koroğlu" dastanı xəbər verir ki, Koroğlunun sökülüb-yığılan, bir burğulu saz da var imiş. Elə saz da Misri qılınc kimi bir silahdır. Koroğlu düşmənə qorxu gəlmək üçün hərbə-zorbalarını sazın müşayiəti ilə oxuyur.

Sazın silah funksiyası, döyüş vasitəsi olması şaman mifoloji kompleksi ilə bağlıdır. Şamanın çaldığı musiqi aləti ruhlar aləmi ilə əlaqə yaratmaq vasitəsi idi. Həmin alət eyni zamanda magik təsir vasitəsi rolunu oynayırdı.

Dastandakı istər musiqi alətləri, istərsə də havaların mənşəyi hərb kultuna, mifik hərb totemlərinə bağlanır. Dastanda insanla saz, hərbçi ilə hərbi musiqi və musiqi alətləri arasındakı ahəng, bağlılıq bilavasitə ruhani mahiyyət daşımaqla əski mifoloji görüşlərə gedib çıxır. "Koroğlu" dastanında sazla qəhrəman, döyüşçü ilə musiqi aləti arasında animistik-mifoloji əlaqə var.

---

[19] Paşayeva, S. "Koroğlu" dastanında hərb mövzusunun struktur poetikası // Naxçıvan: AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun materialları. – 2019. № 2, – s.71.

“Koroğlu” dastanında verilən mahnılarda öz əksini tapan savaş taktikalarından biri də qurd oyunu və ya qurd savaş taktikasıdır.

Qurd türklərin hərbi hamisi, hərbi totemidir. Qurd oyunu düşmənə qalib gəlmək üsullarından biridir. Bunun qurd oyunu adlanmasının kökündə həm də qurdun savaçılara hamilik etməsi də durur.

Dastanda hərbə-zorbalar, artıq qeyd etdiyimiz kimi, şaman animistik-magik döyüş ənənəsi ilə bağlıdır. Yeraltı dünyaya oğurlanmış xəstə ruhunun ardınca enən qara şamanlar burada yeraltı dünyanın qoruyucuları ilə qarşılaşaraq, onlarla vuruşmalı olurdular. Şamanlar bu zaman magik söz ritualından istifadə edirdilər.

Dastanda baş verən hadisələr, döyüş və qəhrəmanlıq səhnələri əfsanələrimizdə və rəvayətlərimizdə də yaşamaqdadır.

Koroğlu ilə bağlı əfsanə və rəvayətlər, əslində, onu mifik aləmlə bağlayan tellərdir. O, istər qılıncı, istər sazı, istərsə də sözü ilə bütün qəhrəmanlıq gücünü xalqın bütün etnik enerjisini özündə yaşadan mifdən alır.

“***“Manas” dastanında qəhrəmanlıq ruhunun poetik ifadəsinin mifik semantikası***” adlı paraqrafda qırğız xalqının qəhrəmanlıq eposu olan “Manas” dastanında qəhrəmanın hərbi ruhunun mifoloji semantikasına münasibət bildirilmişdir.

Bu dastanın hərbi ruhunun mifoloji semantikası qəhrəmanın adından başlanır. Qəhrəmanın adı etnosun mahiyyətini ifadə etməklə onun bədii-poetik ruhunun mifoloji qaynaqlarını da özündə ifadə edir.

Qəhrəmanın portretini yaradarkən xüsusi bədii priyomlardan istifadə olunmuşdur. Onun epik bioqrafiyası ilə tanışlıq göstərir ki, Manas qırğız türklərinin arzu və istəyindən doğulmuşdu. O, mifin ölməzliklə “mükafatlandırdığı” Xızır peyğəmbərdən ölməzlik və dönməzlik alaraq əfsanəvi igidliyi ilə

xalqının azadlığı, yurdunun firavanlığı naminə qanlı döyüşlərə atılan bir insandır.

Dastan boyu qarşılaşdığımız müdrik kəlamlar, qiymətli deyimlər, bənzərsiz epitetlər, təşbehlər və eləcə də təkrirlər, alliterasiyalar, andlar, yuxuyozmalar, inanclar birbaşa mif dünyasına açılan qapılar, dastanın hər bir obrazını, bədii məzmun və formanın hər bir elementini, ünsürünü mifologiya ilə qırılmaz şəkildə əlaqələndirən tellərdir.

“Manas”ın poetika aləmi zəngin və rəngarəngdir. Bu xalq eposu digər xalq poeziya nümunələri ilə müqayisədə özünəməxsus bədii sistemə malikdir. “Manas” dastanının poetik məzmunu mürəkkəb və çoxcəhətlidir. Dastanda şaman dualarının, şaman ayinlərinin poetikasının izlərinə şaman qamlamasının izləri qalan alqış, qarğış, vəsiyyət, yuğlamalarda rast gəlinir. Yəqin ki, bu lirik növlər epik janrın formalaşmasına təsir göstərmişdir.

Dastanda Manasa Alp-Manas da deyə müracət edirlər. “Alp” sözü savaşçı, igid kişi, insan mənasındadır. Qədim türk yazılarında Alp tərkibli adların (Yigin Alp Turan) mövcudluğu bu arxetipin böyük və şərəfli tarixindən xəbər verir.

Ümumiyyətlə, “Manas” dastanı özündə tarixi həqiqətlə mifləri birləşdirir. *““Manas” dastanı Orta Asiyada geniş bölgələrə yayılmış qırğızların milli dastanıdır. Bu da Oğuz xan kimi qırğız bölgələrində yaşamış Manas xan adlı bir bahadırın başına gələn əhvalatların toplusudur”*[20].

Manasın həyatı ilə bağlı bir çox səhnələrin (doğulması, Manasın qırx igidi, gəncliyi və evlənməsi və s.) kökündə türk mifoloji görüşləri dayanır. Tanınımş türk tədqiqatçısı B.Ögəl dastandakı mətnləri araşdırarkən bir sıra hadisələrin hansı mifoloji amildən qaynaqlandığını önə çıxarır.

---

[20] Ögəl, B. Türk mifologiyası. I cild. – Bakı: MBM, – 2006. – s.492.

Beləliklə, dünya folklorunun "mədəni qatını" təşkil edən "Manas" dastanı türk xalqlarının bir qolu kimi qırğız xalqının alp-ərənlik tarixinə işıq salır. "Manas" dastanının nəhəngliyinin əsasında mifin tükənməzliyi durur.

Üçüncü fəslin "***Qəhrəman obrazının bədii tərənnümünün mifik qəlibləri***" adlanan sonuncu paraqrafı bu fikri bir daha təsdiqləyir ki, Manas və Koroğlu xalqın qəhrəmanlıq ruhunun bədii ifadəsi və təcəssümüdür.

"Manas" dastanının poetik cazibəsi, ilk növbədə, min ildən çox olan bir müddətdə dastanı cilalayan çox sayda istedadlı söyləyicilərin estetik görüşlərini özündə birləşdirməsində tapmışdır.

Qəhrəmanlar döyüş meydanlarında öz hiss və həyəcanlarını musiqi və sözün zəngin bədii imkanları vasitəsilə ifadə etmişlər. Bu dastanlarda ifadə olunan musiqi və nəğmələr Azərbaycan və qırğız xalqlarının ozan-aşıq mədəniyyətinin, qam-ozan-aşıq xəttinin tarixinə bir işıq salır və onların ümumi bir kökdən qaynaqlandığını göstərir. Hər iki obrazın poeziyasında ozan-aşıq şeiri növlərinin maraqlı nümunələri yaradılmışdır.

Ümumi əcdadlarımızın qəhrəmanlıq və şücaətlərinin izləri qalan "Koroğlu", "Manas" dastanları Azərbaycan və qırğız türklərinin mifik, tarixi, coğrafi, etnoqrafik, ictimai, əxlaqi görüşlərinin ən ali qaynağı, ana dillərinin ən ulu kitablarıdırlar. Bu dastanlarda ifadə olunan musiqi və nəğmələr Azərbaycan və qırğız xalqlarının ozan-aşıq mədəniyyətinin, qam-ozan-aşıq xəttinin tarixinə bir işıq salır və onların ümumi bir kökdən - *mifologiyadan* qaynaqlandığını göstərir.

**"Nəticə"**də tədqiqatın əsas qənaətləri ümumiləşdirilmiş və belə qənaətə gəlinmişdir ki, "Koroğlu" və "Manas" dastanları Azərbaycan və qırğız xalqlarının hərb tarixi və döyüş mədəniyyəti ilə sıx şəkildə bağlıdır. "Koroğlu" və "Manas" dastanları ümumtürk qəhrəmanlıq eposunun istisnasız olaraq

bütün səciyyəvi xüsusiyyətlərini özlərində daşıyır. Onların müqayisəli şəkildə öyrənilməsi nəinki hərb mövzusunun mifoloji semantikasının tədqiqi, eləcə də ümumtürk dastançılıq ənənəsinin bütün tipoloji keyfiyyətlərinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Həm Koroğlu, həm də Manas bütün gücünü, varlığını, mahiyyətini mif dünyasından alır. Bu mənada, mif dastanın bədii quruluşunun hər bir elementində yaşamaqda, özünü qəhrəmanlıq ruhunun enerji mənbəyi kimi göstərməkdə davam edir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı məqalə, konfrans materiallarında öz əksini tapmışdır:**

1.Azərbaycan qəhrəmanlıq dastanlarında mədəni irs məsələləri // Diaspora, transmillilik, transkulturalizm və mədəniyyətlərarası əlaqələr sosial kapitalın yeni forması kimi" / VI beynəlxalq elmi-praktiki konfransın materialları. – Makedoniya, Ohrid-Vodiçi, 2018. 17-19 yanvar, s. 180-183.

2. Azərbaycan və qırğız xalqlarının dastançılıq ənənəsində "Koroğlu" və "Manas" dastanları // V Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunun materialları. – 2018. 11-13 oktyabr, – Alma-Ata, s. 510-515.

3. Türk savaş sanatının Manas ve Köroğlu kökenleri // Tiflis: I Uluslararası Dergi Karadeniz Sosyal Bilimler Sempozyumu, 2019, 24-26 ocak, s.89

4. Folklorda döyüş ənənələri // Bakı: "Dil və ədəbiyyat" jur., – 2019. № 1 (109). – s. 263-267.

5."Koroğlu" dastanı və onu doğuran ictimai-siyasi hadisələr, yaşadan real şəxsiyyətlər // Bakı: "Filologiya məsələləri" jur., – 2019. №4, – s. 258-266

6.“Koroğlu” dastanında hərb mövzusunun struktur poetikası // Naxçıvan: AMEA Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun materialları. – 2019. № 2, – s. 66-72

7.“Manas” dastanında hərb mövzusunun poetik ifadəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2019, – №5, s.121-124

8.Türk hərb sənətinin “Manas” və “Koroğlu” kökləri // Bakı Qızlar Unversiteti: Elmi Əsərlər. – C.II.2020, №4, s. 59-64.

9. Военная тема и четыре стихии (первоосновы) в эпосах «Короглу» и «Манас» // Вестник Казахского Национального Университета имени Аль-Фараби: серия Филологическая. 2020.- №4.- с.157-163

10. “Manas” dastanında qadın qəhrəmanların mifik ana semantikası // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Filologiya fakültəsi Ümummilli Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Heydər Əliyevin Azərbaycançılıq İdeologiyası Filoloji Fikir kontekstində” mövzusunda konfransının materialları. Bakı: 17 may 2021-ci il, s.267-270

11. Мифические корни боевых искусств и культов оружия в эпосах «Короглу» и «Манас» // Colloquium-journal, Warszawa, Polska, 2022, №33 (156), s.48-52 // https://journals.indexcopernicus.com/search/article?articleId=3529061

**Dissertasiyanın müdafiəsi 4 İyun 2024-cü il tarixində saat 14⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən BFD 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat 1 May 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb: 23.04.2024**

**Kağızın formatı: 60*84/$^{1/16}$**

**Həcm: 47386**

**Tiraj: 100 nüsxə**